# 40 YAŞIN MÜBARƏK OLSUN!




*"Mədəni-maarif" intellektual səviyyəli, gözəl tərtibatlı, mənalı-məzmunlu, oxuculara mənəvi cəhətdən qida verən, onların qəlbinə daim xoş ovqat gətirən jurnallardan biridir.*

*"Əkinçi" qəzeti ilə milli mətbuatın əsasını qoymuş böyük alim, pedaqoq, jurnalist və ictimai xadim Həsən Bəy Zərdabi mətbuatı Azərbaycan elmi, bədii, fəlsəfi fikrini əks etdirən bir ayna sayırdı. "Mədəni-maarif" jurnalı nəşrə başladığı ilk gündən ta bu günə qədər öz babası "Əkinçi"yə sadiq qalmış, onun yolunu şərəflə, ləyaqətlə davam etdirmişdir. O, 40 illik çox çətin və məsuliyyətli, zəngin və şərəfli bir yol keçmişdir.*

Jurnal nəşrə başladığı illər ərzində mədəniyyətimizin və incəsənətimizin inkişafı naminə səmərəli fəaliyyət göstərmiş, respublikamızın ictimai-siyasi və sosial-mədəni həyatını müntəzəm olaraq işıqlandırmışdır. Mədəniyyət işçilərinin arzuları, qayğıları ilə yaşamış, sevincinə, kədərinə daim ortaq olmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aylıq mətbu orqanı kimi jurnal milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, ölkəmizin mədəni həyatının işıqlandırılması, tarixi abidələrimizin mühavizə edilməsi, yeni yaradılmış turizm sahəsindəki uğurlarımızı təbliğ və təqdir etmək üçün böyük, önəmli işlər görür.

Azərbaycan Respublikasının Prezidenti cənab İham Əliyev mədəniyyət və incəsənətimizə, sənət və sənət adamlarına həmişə qayğı və diqqət göstərir. "2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası" layihəsi biz mədəniyyət işçilərinin ürəyincədir.

Mədəniyyətimizin inkişafı naminə dövlət əhəmiyyətli qərar və sərəncamların, layihələrin həyata keçirilməsi sahəsində "Mədəni-maarif" jurnalı öz imkanlarından geniş istifadə edir. Mədəniyyət işçilərini maarifləndirir, onlara bilik və savad verməyə çalışır.

Jurnal tanınmış mədəniyyət və incəsənət xadimlərimizin, şair və yazıçılarımızın, sənət və peşə adamlarının yazılarını ardıcıl olaraq öz səhifələrində dərc edir.

Mən "Mədəni-maarif" jurnalının daimi oxucusu olmaqla, onunla əməkdaşlıq edirəm. Jurnalın hər yeni nömrəsini çox səbirsizliklə gözləyirəm. Sağ olsun, jurnalın baş redaktoru Yaşar Vəliyev cənablarını! Jurnalın səhifələrini peşəsindən, sənətindən, vəzifəsindən asılı olmayaraq hamının üzünə açıbdır. Jurnalın yaradıcı kollektivi bütün müəlliflərin yazılarına hörmətlə yanaşır. Şəxsən mənim yazılarımı çox geniş ürəklə, səxavətlə jurnalın səhifələrində çap edirlər. Bu qayğı və diqqət üçün mən baş redaktor Yaşar müəllimə, jurnalın yaradıcı kollektivinə öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. "Mədəni-maarif" jurnalına geniş oxucu auditoriyası arzulayıram. Jurnalın 40-cı ildönümü münasibətilə baş yazar Yaşar müəllim başda olmaqla, onun jurnalist kollektivini səmimi qəlbdən təbrik edir, onlara gələcək işlərində yeni-yeni uğurlar diləyirəm.

"Mədəni-Maarif" jurnalına 40 yaşın mübarək olsun deyirəm. Gün o gün olsun ki, 50 yaşını, 100 illik yubileyini bayram edək!

**Kazım KAZIMLI**